# Ali Məqamlı Rəhbər İmam Hüseynə (ə) həsr olunmuş ilk matəm gecəsində iştirak etdi - 22 /Nov/ 2012

İmam Xomeyni (r.ə) adına hüseyniyədə İslam İnqilabının Ali Məqamlı Rəhbəri Həzrət Ayətullah Xameneinin iştirakı ilə şəhidlər ağası Həzrət Əba-Əbdillah Hüseynə (ə) və onun sadiq silahdaşlarına həsr olunmuş matəm mərasimi keçirildi.

Hökumət nümayəndələrindən bir qrupunun və xalqın müxtəlif təbəqələrini təmsil edən insanların iştirak etdiyi mərasimdə Əba-Əbdillah Hüseynin (ə) əzəmətli hərəkatının müxtəlif aspektləri şərh olundu, ardınca pak və məsum Əhli-Beyti (ə) mədh edən söz ustadları Seyyidüşşühədanın (ə), o həzrətin ailə üzvlərinin və əshabələrinin çəkdiyi müsibətləri şerin dili ilə təsvir etdilər.

Mərasim bazar ertəsi günü – məhərrəm ayının 11-nə qədər davam edəcək.

**Materialdan istifadə edərkən WWW.LEADER.İR saytına istinad zəruridir**